# ƏSL DOST

## ləyaqət və sədaqəti ilə fərqlənməlidir

***Hər bir insan yaşadığı cəmiyyətin üzvüdür. Təbiəti etibarilə insan ictimai olduğundan onun tam xoşbəxtliyi də yaşadığı cəmiyyətlə, ünsiyyətdə olduğu adamlar, onların səadəti ilə bağlıdır. Tusiyə görə, kimin ki bütövlüyü başqalarının kamilliyi ilə əlaqədardır, o heç vaxt təklikdə kamala çata bilməz. Kamil və xoşbəxt o adam olar ki, özünə çoxlu sədaqətli həmkar tapmış olsun, özünə xeyirli şeylərə onları da şərik etsin, tək bacara bilmədiyi xoşbəxtliyi onların köməyi ilə ələ gətirsin, bütün ömrü boyu dostların varlığı ilə fəxr edib ləzzət aparsın. Müəllif göstərir ki, bu cür adamlar həyatda azlıq təşkil edərlər, lakin ələ keçdikdə qədrini bilmək, qayğısını çəkmək lazımdır. Onlar duz və ədviyyat yerinə olarlar, xörəyi ləzzətə gətirər, ancaq yeməyi əvəz edə bilməzlər.***

Şərafətli və qiymətli şeylər, ümumiyyətlə, nadir tapılarlar və azlıq təşkil edərlər. Ancaq ümumi maraqlar, qarşılıqlı fayda olduqda çox adamların arasında xoş münasibət yaratmaq mümkündür. Bəzi hallarda maddi mənafe olmadıqda belə xeyirxah, fazil, alim adamlar öz əqidə yoldaşları ilə məqsəd ümumiliyi üzündən daha vəfalı dost ola bilirlər.

Böyük filosofun əqidəsinə görə, insan nəfsində sədaqət fəzilətinə yiyələnmək xassəsi olduğundan o, insanları bir yerdə çalışmağa, yaxşı əməllərdə birgə iştirak etməyə, çətinlikləri aradan qaldırmağa vadar edir. Tusi eramızdan əvvəl IV əsrdə yaşamış məşhur tarixçi İnsqratisdən misal çəkərək yazır ki, hər şeydən əvvəl övladlara dostluq, ünsiyyət, ülfət, məhəbbət, xeyirxahlıq, qarşılıqlı kömək, yəni həyat üçün zəruri, onlarsız yaşamaq mümkün olmayan fəzilətləri öyrətmək lazımdır.

Dostluğu həyatın ən gözəl nemətlərindən hesab edən Tusi onun barəsində yazır: "Bütün varlıq və yoxluqlar dostluğa bağlıdır. Ən çətin və ağır günlərdə insanın əlindən tutan, dadına çatan dostdur. Xoş o adamın halına ki, belə dostları vardır, dünya malından heç nəyi olmasa da nə qəmi!!!" ( X.N.Tusi, Əxlaqi - Nasiri, Bakı, "Elm" nəşriyyatı - 1989, səh. 225)

Həyatın bu gözəl fəzilətini yüksək qiymətləndirən müəllif dostları necə seçmək və hansı üsul ilə saxlamaq qaydalarına da xüsusi diqqət yetirir. Dostları seçmək çox çətindir. Çünki başqa canlılara nisbətən özünü böyük məharət və saxtakarlıqla fəzilət sahibi kimi qələmə verməyi bacaran, belə işlərdə tayı olmayan adam cinsi ilə,

məsələn, pul paylamaq, mal verməklə özünü səxavətli göstərmək istəyənlər kimi. Daha ehtiyatlı olmaq lazımdır, bunlar süni surətdə işləri elə təşkil edə bilər ki, qoçaqlıq və şücaətdə şöhrət taparlar.

Qarşısına çıxan hər adamla dostluq etmək istəyən şəxs müəllifin nəzərincə, müxtəlif otları bir-birindən ayıra bilməyən adam misalındadır. Bütün bitkilər onun gözündə bir-birinə oxşayır, şirin hesab etdiyi göyərtini yedikcə acı olduğunu anlayır, yeməli güman etdiyi xaşxaşın dadına baxdıqda zəhərli olduğu meydana çıxır. Lakin onları tanıyıb xüsusiyyətlərini öyrəndikdə qorxusu olmaz. Ona görə də insan başqaları ilə münasibətdə diqqətli olduqda, hiyləgərlik edib özlərini xeyirxahlar və fəzilət sahibləri kimi göstərən adamların toruna düşməz, son nəticədə isə təəssüf hissi keçirməz.

Tusi dost seçmək barədə İnsqratisdən nümunə gətirir: "Bir adamın sədaqətindən istifadə etmək istədikdə əvvəlcə onun keçmişini öyrənmək gərəkdir, bilmək lazımdır ki, o, bakirə, təmiz, pak uşaqlığını necə qorumuş, ata, ana, qohum - qardaş, tay - tuş ilə necə rəftar etmişdir"

Dostluq eləmək istədiyin adamın keçmişi ləyaqətlidirsə onda ona sədaqət göstərib məhəbbət bəsləmək olar, əks təqdirdə ondan uzaqlaşmaq lazımdır. Müəllifə görə, öz mənliyini qoruya bilməyib, valideyn üzünə ağ olan adam dostluq qaydalarına riayət edə bilməz. Həmin adamın dostluq elədiyi başqa adamlarla necə davrandığı öyrənilməli, digər şəxsi keyfiyyətləri təhlil edilib qiymətləndirilməlidir. Bu zaman onun qədirbilən, yoxsa naşükür olduğuna xüsusi diqqət yetirməlidir. Tusi qədirqanlığı belə qiymətləndirir ki, yaxşılıq əvəzinə yaxşılıq etsin, mükafat versin. Əgər mükafatı verməyə maddi imkanı olmasa, dili ilə razılığını bildirib təşəkkürü etsin. Ancaq naşükür adam isə hamının qadir olduğu təşəkkür sözünü belə dilinə gətirməyi əskiklik sayar, əlinə nə keçsə onu qənimət bilər. Dünyada nemət qapılarını üzə bağlamaqda naşükürlükdən daha böyük bədbəxtlik yoxdur. Ona görə də müəllif naşükür adamların xasiyyətini ən murdar xasiyyət hesab edir.

Dostluq üçün qədirqanlığı əsas meyarlardan biri kimi qəbul edən Tusi onun barəsində belə yazır: "Ən gözəl xasiyyət içində də qədir bilməkdən gözəl sifət ola bilməz. Nemətlərin bolluğu və arasıkəsilməzliyi qədirbilmə və şükrə bağlıdır" (Səh.227).

Müəllifə görə, dostluq münasibəti yaratmaq istədiyin adamın nəyə həris olub, nəyə meyl etdiyini, nədən zövqə gəlib, nəyi xoşladığını bilmək lazımdır, çünki qardaşlıq şərtindən biri belə şeylərin nəzərə alınması və onlara riayət olunmasıdır. Pulpərəstlik, xəsislik, əliaçıqlıq, hədiyyə aparmaq, borc almaq və s. xüsusiyyətlər də yoxlanılmalıdır.Həyatda ən böyük narazılıqlar çox vaxt pul və var-dövlət üstündə olur.

Tusi dostluq münasibətində dost olacağın adamın, demək olar ki, bütün cəhətlərinə diqqət yetirir. O yazır: "Vəzifə, güc və məqamda yüksək olanlar qarşılıqlı münasibət, kömək, hədiyyə, bəxşiş, alım, verim və sairədə bərabərliyə razı olmazlar: üstünlük, təkəbbür başqalarının onlara qarşı daha sədaqətli, daha səxavətli olmaları fikrini oyadar, onlar özlərini böyük saymağa başlayarlar. Dostluq və ağalıq bir yerə sığmadığından, nəhayət, sədaqət ədavətə çevrilir, düşmənçilik əmələ gəlir"(səh.227).

Böyük filosof göstərir ki, müxtəlif sınaqlardan çıxarıldıqdan sonra münasibətində olduğun adamda rəzil hərəkətlər görmədikdə onunla dostluğa başla, onu əldən buraxmamağa çalış və qayğısına qal. İnsan həyatda bir həqiqi dost tapa bilsə, onunla kifayətlənə bilər.Çünki dost çox olduqda, dostluq tələbatı da artıq olar, birini yerinə yetirdikdə, digərini diqqətindən kənarda saxlaya bilər, könlünü qırarsan. Və ya bir dostunun sevinci ilə sevinməli olduğun halda, o birinin kədəri ilə kədərlənməli olarsan, iki bir-birinə əks işi eyni vaxtda görə bilmədiyin üçün bir tərəfi özündən narazı salar, ürəyinə toxunarsan. Müəllif kiçik, xırda nöqsanları dosta irad tutmağı məqbul saymır, nöqsansız adam axtaranın axırda dostsuz qalacağını söyləyir.

Dosta qayğı göstərmək, onunla davranmaq olduqca məsuliyyətli işdir. Bu barədə Tusinin nəzəri belədir: "Əsl məsələ orasındadır ki, dost olduğun adamın hayına qalıb nazını çəkəsən, şıltaqlığına dözəsən, ən kiçik haqqını belə tapdalamayasan, xeyrində, şərində iştirak edəsən, ağır günündə dalında durasan, büdrəyəndə əlindən tutasan, yoxsulluğa düşəndə gülərüzlə, xoşsifətlə qarşılayasan, qəlbində ümid məşəli yandırasan, gözlərində sevinc atəşi alovlandırasan, davranışında şadlığa səbəb olasan, bununla kifayətlənməyib ürəyindəkiləri açıb deməyə məcbur edəsən, çünki ürəkdəki sözü böyük



Yaradandan başqa heç kəs bilməz" (səh.228).

Həyat bir-birinə bənzəməyən arasıkəsilməz, müxtəlif, gözlənilməz hadisələrlə davam edir, tez-tez təzələnir. Müəllifə görə, dostlarla dünya malını bölmək, bir yerdə yeyib-içmək, birgə qazanc əldə etmək nə qədər lazımsa, şərlərində iştirak edib kədərlərini bölüşdürmək ondan da vacibdir. Ağır və müsibətli günlərdə dostlara edilən maddi və mənəvi kömək adi vaxtlarda olduğundan daha artıq olmalıdır.

Başqaları ilə dostluq etmək arzusunda olan şəxs həddindən artıq həssas olmalıdır. O, dostunun davranışı və hərəkətlərindən ürəyindən keçənləri dərk etməli, dilinə gətirmədiklərini yerinə yetirməyə çalışmalıdır. Bu cür hallar ən çox kədərli günlərdə baş verir, sadiq dostlar belə vaxtlarda daha diqqətli olur, qəmə batmış dostunun kədərini bu yolla azaltmağa, dağıtmağa səy edirlər. Müəllif qeyd edir ki, həyat axarında dostlardan biri yüksək mənsəbə çatsa, daha çox təvazökar olmalı, dost və yoldaşlarına imkan daxilində kömək göstərməli, onların boynuna heç vaxt minnət qoymamalıdır. Əgər təkəbbür, xudpəsəndlik üzündən özü soyuqluq göstərsə, dostluq telləri qırılar, sədaqətə xələl gələr. Belə halda gecikmək olmaz, ən doğru yol odur ki, tez bir zamanda inamsızlıq və soyuqluğa səbəb olan həmin hadisə araşdırılsın ki, hər şey açıq, səmimi etiraf edilsin. Çünki doğruluqda çox böyük bərəkət vardır və belə bir etiraz tezliklə səmimiyyətin bərpa olunmasına kömək göstərər.

İnsanlar arasındakı dostluq münasibətləri nə qədər xoşagələn və ürəkaçandırsa, bu münasibətləri qorumaq olduqca çətindir. Belə bir münasibət yaratmaq istəyənlər heç vaxt yalan danışmamalı, bir-birinin xasiyyətinə həmişə hörmətlə yanaşmalıdırlar. Tusinin bu barədəki fikirləri də çox qiymətlidir: "Sataşmaq, yalan danışmaq, ümumiyyətlə, pis şeydir, xüsusilə dostlara: yalanla dostluq bir yerə sığmaz. Bunun səbəbi odur ki, yalan ixtilafa, ixtilaf isə düşmənçiliyə aparıb çıxarar, düşmənçilik isə bütün şərlərə bais olar. Əslinə qalsa, ülfət və dostluq-doğruluq xatirinə yaradılmışdır" (səh. 230).

Həyatda eyibsiz adam tapmaq çətindir. Dost olacağın adamda da kiçik nöqsanların olacağı təbiidir. Ona görə də dostda bir eyib gördükdə onunla əlbir olmaq, yəni, nöqsanın islah olunmasına çalışmaq lazımdır. Bu barədə müəllif yazır ki, dostların eyiblərini başqalarından gətirilən rəvayət və misallarla başa salmaq daha yaxşıdır, bu fayda vermədikdə üstüörtülü şəkildə və ya zarafatla ona çatdırmaq lazımdır. Belə bir yol da nəticə vermədikdə xəlvətə çəkib əvvəlcə sədaqətdən, xeyirxahlıq, qarşılıqlı etimad, etibar, səmimilik və dostluq qaydalarından söhbət salıb nöqsanı onun üzünə açıb demək gərəkdir. Ancaq bu əhvalatı təkcə düşmənlərdən yox, başqa dost və tanışlardan da gizli saxlamaq vacibdir. Tusiyə görə, dost ona deyərlər ki, dostunun eybini özündən savayı heç kəsə deməsin, dostların məzəmmətinə, düşmənlərin isə şəmatətinə səbəb olmasın.

Cəmiyyət içərisində yaxşı adamlarla bərabər, sözgəzdirənlər, araqarışdıranlar da həmişə olmuşdur. Belələri çox vaxt nəsihət bəhanəsi ilə dostların arasına girib, gözəl kəlmələr, təmiz kəlamlar içərisində bundan ona, ondan buna təhrif olunmuş halda, elə çirkin, elə iyrənc sözlər deyər ki, narazılığı artırar, yalandan birinin üstünə beşini də qoyub o birinə çatdırar, nəhayət, sədaqətin ədavətə çevrilməsinə nail olarlar. Tusi qədim alimlərin fikirlərinə əsaslanıb araqarışdıranları o adamlara bənzədir ki, onlar əvvəlcə dırnaqları ilə divarların dibini eşərlər, sonra barmaqlarına yer eləyər, daha sonra külüng götürüb divarın özülünü qazar, bünövrəsini sarsıdar və bütün binanın uçub dağılmasına səbəb olarlar.

Ona görə də müəllif dostlara həmişə ayıq olmağı, araqarışdıran adamların fitnəsinə uymamağı məsləhət görür. Həqiqi dostlar heç vaxt belələrinin felinə inanmır, onların dostluğu uzunömürlü, əbədi olur və sonralar övladları tərəfindən davam etdirilir, çox vaxt bu dostluq qohumluğa çevrilir.

Tusinin dostluq, sədaqət, insanların bir-birinə inamı və məhəbbəti barədəki fikirləri geniş və olduqca qiymətlidir. Gənc nəslin tərbiyəsində bu ideyalardan müntəzəm olaraq bəhrələnməyimiz və onlardan istifadə etməyimiz çox vacibdir. Dahi filosof qarşılıqlı əmək və kömək bünövrəsi üzərində qurulan dostluq və sədaqəti hamını məftun edən möhtəşəm, əzəmətli bir bina kimi qiymətləndirir.

**Hacı Bayraməli Aslanov,**
**Lerik rayonundakı Anzolu kənd məktəbinin müəllimi**